# Peşə bayramı qeyd olunmuşdur

Fövqəladə Hallar Nazirliyinin Qəbələ şəhərində yerləşən Şimal-qərb Regional Mərkəzinin əməkdaşları peşə bayramlarını qeyd etmişlər.

Tədbirdə mərkəzin əməkdaşları ilə birlikdə nazirliyin regionda fəaliyyət göstərən digər qurumlarının əməkdaşları da qatılmışlar.

Onlar əvvəlcə ümummilli lider Heydər Əliyevin mərkəzin həyətində ucaldılan büstünün önünə gül dəstələri düzərək, ulu öndərin işıqlı xatirəsini ehtiramla yad etmişlər.

Sonra bayram tədbiri Şimal-qərb Regional Mərkəzin inzibati binasında davam etdirilmişdir. Bildirilmişdir ki, Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmış, bir il sonra isə ölkə başçısı tərəfindən 16 dekabrın qurum işçilərinin peşə bayramı günü kimi təsis olunması barədə fərman imzalanmışdır.

Tədbirdə ötən 13 il ərzində nazirliyin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, beynəlxalq əlaqələrin inkişafı sahəsində görülən işlər barədə məlumat verilmişdir.

Həmçinin mülki müdafiə işi sahəsində–əhalinin təbii fəlakətlərdən və texnogen qəzalardan, mümkün terror hadisələrindən qorunması, yanğın təhlükəsizliyinin və su hövzələrində təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər diqqətə çatdırılmışdır.

**FHN Şimal-qərb Regional Mərkəzinin maarifləndirmə sektoru.**

# Sahibkarlığın inkişafına maraq artır

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin və "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyası rayon komitəsinin birgə təşkilatçılığı ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Sahibkarlıq" mövzusunda tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Günel Ağayeva Azərbaycan qadınının keçdiyi tarixi yoldan söz açmışdır.

Sonra "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının vitse-prezidenti Cəmaləddin İsmayılov çıxış edərək bəzi ölkələrdə qadın və kişilər arasında fərqə yol verildiyini bildirmiş, Azərbaycan qadınının isə kişilərlə bərabər bütün sahələrdə kənd təsərrüfatında, sənayedə, təhsil, səhiyyə, elm sahələrində, incəsənətdə, idarəetmə və s. çalışdığını, uğurlar qazandığını bildirmişdir.

Peşə təhsil mərkəzinin direktor müavini Camal Rəsulov çıxışında zərif cinsin nümayəndələrinin həmişə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiklərini qeyd etmişdir.

Bildirilmişdir ki, qadınlar istənilən sahədə öz sahibkarlıq fəaliyyətini qurmaq qabiliyyətinə malikdirlər.

Dəyirmi masa arxasında keçirilən tədbirdə qadınlara və gənclərə öz bizneslərini qurmaq üçün müvafiq tövsiyələr verilmiş, rayonumuzda yeni açılmış iş yerləri və müəssisələr haqqında məlumatlar çatdırılmışdır.

Çıxış edənlər qadınların kənd təsərrüfatı-maldarlıq, quşçuluq, baramaçılıq, tütünçülük, heyvandarlıq və s. sahələrdə fəallığının artırılması məqsədi ilə keçirilən maarifləndirici tədbirin müsbət nəticələr verəcəyinə əmin olduqlarını bildirmişlər.

Tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin işçisi.**

# Uşaqları zərərli vərdişlərdən qoruyaq

Rayon polis şöbəsinin əməkdaşları Nohurqışlaq kənd tam orta məktəbində «XXI əsrin bəlası narkomaniya», «Uşaq hüquqları», «Zərərli vərdişlər» və yol hərəkəti qaydalarına həsr olunmuş tədbir keçirmişlər.

Yuxarı sinif şagirdlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə rayon polis şöbəsi rəisinin müavini, polis polkovnik leytenantı Azər Cəfərov açmışdır.

Polis şöbəsinin əməkdaşı Elnur Umudəliyev «XXI əsrin bəlası narkomaniya» mövzusunda məruzə etmişdir. Məruzədə narkotik maddələrdən istifadənin cəmiyyətə və cəmiyyətin fərdi olan insanlara vurduğu zərər barədə faktlarla tədbir iştirakçılarına məlumat verilmiş, narkomanlığa qarşı dövlət səviyyəsində geniş iş aparıldığı bildirilmişdir. Qeyd olunmuşdur ki, Respublika Daxili İşlər Nazirliyində narkomaniyaya qarşı mübarizəni gücləndirmək üçün ayrıca qurum fəaliyyət göstərir.

Tədbirdə yol patrul xidmətinin baş inspektoru Aydın Heydərov yol hərəkəti qaydaları haqqında çıxış etmişdir. O, qeyd etmişdir ki, ötən il rayon ərazisində baş verən yol-nəqliyyat hadisələri nəticəsində 15 nəfər vəfat etmiş, xeyli adam xəsarət almışdır. Bildirilmişdir ki, bu cür halların baş verməməsi üçün istər sürücülər, istərsə də piyadalar yol hərəkəti qaydalarına ciddi əməl etməlidirlər. Məktəblərdə yol hərəkəti qaydaları haqqında müntəzəm olaraq tədbirlərin keçirilməsinin vacibliyi tövsiyə olunmuşdur.

Rayon polis şöbəsinin azyaşlılarla iş üzrə baş inspektoru Azər Hüseynov həddi-buluğa çatmayanların erkən nigaha girməsinin fəsadlarından danışmış, bu sahədə qanunvericiliyin tələblərini izah etmişdir.

Sonda şagirdlərin çoxsaylı sualları cavablandırılmışdır.

**Yaqub TAHİROV,**
**məktəbin direktoru.**

# Ölkəmizə bir milyon tut tingi gətirilib

Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illəri əhatə edən Dövlət Proqramı çərçivəsində ölkəyə Çin Xalq Respublikasından daha bir milyon ədəd tut tingi gətirilib.



Çinli mütəxəssislərin müşayiəti ilə ölkəmizə gətirilən tut tingləri 36 rayonda Çin texnologiyası əsasında əkiləcək. Əkin prosesini Çindən gəlmiş mütəxəssis müşahidə edəcək.

Son illər ölkəyə 3,5 milyon tut tingi gətirilərək 514 ton yaş barama istehsal olunub. Yeni tinglərin gətirilməsi isə gələcəkdə daha çox məhsul əldə etməyə imkan verəcək. Çin Xalq Respublikası ilə aparılan danışıqlara əsasən bu il ölkəyə 20 min qutu ipəkqurdu gətirilməsi nəzərdə tutulub. Çindən gətirilən tut tingləri və ipəkqurdu kümçülərə əvəzsiz olaraq veriləcək.

Yeni tut bağlarının salınması məqsədilə Çindən ölkəmizə gətirilmiş 1 milyon ədəd tut tingindən 50 mininin Qəbələ rayonu ərazisində əkilməsi nəzərdə tutulub. Bu məqsədlə rayonun qəsəbə və kəndlərində tinglərin əkini üçün bələdiyyə və xüsusi mülkiyyətə aid torpaq sahələri müəyyənləşdirilib.

Bundan əlavə, baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə payız mövsümündə rayon ərazisində 140 min ədəd yerli tut tinginin əkilməsi də nəzərdə tutulur. Artıq bu istiqamətdə işlərə də başlanılıb və qısa müddətdə 59 min ədəd tut tinginin əkilməsi təmin olunub. Tinglər rayonun əsasən Vəndam qəsəbəsində, Bayramkoxalı, Tüntül, Bunud, Kürd və Soltannuxa kəndlərində, eləcə də digər yaşayış məntəqələrinin ərazilərində əkilib.

Qeyd edək ki, baramaçılığın inkişaf etdirilməsi və gələcəkdə yaş barama istehsalının artırılması məqsədilə son illər rayon ərazisində 170 min ədəd tut tingi əkilib. Bunun 110 min ədədini Çindən gətirilən tinglər təşkil edib.

Xatırladaq ki, "Azər-ipək" MMC yaş baramanı kümçülərdən 4 manata təhvil alır, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 5 manat subsidiya ödəyir.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Tütün dərimi yekunlaşıb

Artıq üçüncü ildir ki, tütün əkilən Qəbələ rayonunun təsərrüfatlarında cari ildə 75 hektar sahədə tütün yetişdirilib. Sahələrin 15 hektarına "Virciniya" növlü ətirli, 24 hektarına "Berley", 36 hektarına isə yerli tütün sortları əkilib. Artıq təsərrüfatlarda tütün dərimi yekunlaşıb. Fermerlər indiyədək əkin sahələrindən 853 ton yaşıl tütün əldə ediblər.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə yığılan yaşıl kütlədən bu günədək 105 tondan çox quru tütün istehsal olunub. Qurudulmuş tütünün 85,7 tonunu "Virciniya" növlü ətirli tütün təşkil edir.

Mövsüm ərzində tütünün əkilib becərilməsinə və yığımına 120 nəfərədək sakin cəlb edilib.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**«Qəbələ»**

# Səpin kampaniyası başa çatmaq üzrədir

Qəbələdə taxılçılıq əsas təsərrüfat sahələrindən hesab olunur. Fermerlər təsərrüfatın bu sahəsinə böyük maraq göstərdiklərindən rayonda məhsul istehsalı ildən-ilə artır.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, taxılçılar ötən ilin payızında 20 min 100 hektar sahədə taxıl əkiblər. Əkinçilər cari ildə biçin apardıqları arpa sahələrindən 16646 ton, buğda zəmilərindən isə 46 min ton məhsul götürüblər. Məhsul istehsalçıları taxıl sahələrindən ümumilikdə 62 min 464 ton taxıl əldə edərək, məhsuldarlığı hər hektardan 32,2 sentnerə çatdırıblar.

Əldə olunan nəticələri növbəti təsərrüfat ilində daha da artırmaq üçün fermer və torpaq mülkiyyətçiləri səpin kampaniyasına vaxtında başlayıblar. "Aqrolizinq" ASC tərəfindən bütün lazimi səpin aqreqatları ilə təmin olunan əkinçilər qısa müddətdə 20 min 160 hektar sahədə səpin aparıblar ki, bunun da 15 min 560 hektarı buğda, 4 min 600 hektarı isə arpadır. Sahibkarlar səpin zamanı daha çox məhsuldar toxum sortlarına üstünlük veririlər. Gün ərzində 450 hektar sahəyə toxum səpən əkinçilər səpin kampaniyasını qısa müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini sərf edirlər.

**Səfa ASLANOV,**
**"Qəbələ"**